## “ZƏFƏRİN UŞAQLARI” ADLI HEKAYƏ MÜSABİQƏSİ

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və “Azərbaycan Nəşriyyatları Assosiasiyası” İctimai Birliyinin birgə layihəsi, “XAN Nəşriyyatı”, eləcə də “Audiokitab”ın tərəfdaşlığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Zəfərin uşaqları” adlı hekayə müsabiqəsi elan edilir. Müsabiqənin sponsoru “Hədəf Şirkətlər Qrupu”dur.

Müsabiqənin təşkilində əsas məqsəd uşaq hüquqlarının qorunmasını ədəbiyyat mövzusuna çevirməklə ictimaiyyətə bədii formada çatdırılması, özündə gender bərabərliyinə əsaslanan sosial məsuliyyəti, uşaq və yeniyetmələrin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, hüquqlarının müdafiəsi barədə informasiyanı ehtiva edən əsərləri ərsəyə gətirməklə əhalinin maarifləndirilməsi, yaradıcılıq potensialı olanları müsabiqəyə cəlb etməklə yeni hekayələrin yazılmasına stimul verilməsidir. Müsabiqə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur və Ulu öndər Heydər Əliyevin Azərbaycanda uşaq hüquq və azadlığına dair yürütdüyü uğurlu siyasətin davamını ifadə edir.

**Müsabiqənin şərtləri:**

* Hekayələrin mövzusu uşaq hüquqlarının müdafiəsini, cəmiyyətin müxtəlif çevrələrində gender bərabərliyinin pozulmasından irəli gələn ictimai məsuliyyəti, boşanmaların, əsasən, ailədəki uşaqlara vurduğu psixoloji zərbələri, yaratdığı mənəvi böhranları, eləcə də bu istiqamət üzrə digər aktual məsələləri əhatə etməlidir.
* Hekayələr daha əvvəl heç bir yerdə çap olunmamalı və yayımlanmamalıdır.
* Müsabiqəyə həcmi 2.000 (iki min) işarədən az, 20.000 (iyirmi min) işarədən artıq olmayan hekayələr qəbul edilir.
* Hekayənin mətni üçün tələblər: şriftin qarnituru “Arial”, ölçüsü 12, sətirlərarası interval 1, faylın formatı “doc.” A4.
* Hər müəllif müsabiqəyə yalnız bir əsər təqdim edə bilər.
* Müəllif özü haqqında məlumatı və əlaqə vasitəsini fayla əlavə etməlidir.
* Müsabiqədə iştirak etmək üçün yaş məhdudiyyəti yoxdur.

Hekayələr uşaq məsələləri üzrə mütəxəssis, peşəkar ədəbiyyatçı və sosioloqlardan ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcəkdir. Münsiflərdən ən çox bal almış ilk 10 hekayə kitab şəklində nəşr ediləcək (ilk 10 yeri qazanmış hekayənin nəşr və yayım hüququ yalnız “XAN Nəşriyyatı”na məxsus olacaq) və ilk 3 yerin qalibi diplom və hədiyyə ilə mükafatlandırılacaqdır.

**Mükafatlar:**
Birinci yer – I dərəcəli diplom və 1000 manat;
İkinci yer – II dərəcəli diplom və 500 manat;
Üçüncü yer – III dərəcəli diplom və 300 manat.

**Müsabiqənin müddəti:**
1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində keçirilən müsabiqə üçün hekayələrin qəbulu 1 may 2023-cü il tarixində sona çatacaqdır.
1 iyun 2023-cü il tarixində qaliblərin mükafatlandırılma mərasimi təşkil olunacaqdır.

**Əlavə məlumat üçün müraciət edə bilərsiniz:**
Tel.: (+994 77) 220 86 88

**İştirakçılar tərəfindən hekayələr aşağıdakı elektron poçt ünvanına göndərilməlidir:**
Elektron ünvan: zeferinushaqlari@gmail.com